2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 dekabr 2019-cu il tarixli 49 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 02 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş seçkilərdə 85 saylı Şamaxı seçki dairəsindən Şəhriyar bələdiyyəsi üzrə qeydə alınmış namizəd Hüseynov Natiq Məmməd oğlunun həmin seçki dairəsinin 12 saylı seçki məntəqəsində qanun pozuntusuna yol verildiyinə dair 30 dekabr 2019-cu il tarixdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 49 saylı müraciətini araşdıraraq **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Namizəd öz müraciətində göstərmişdir ki, səsvermənin nəticəsinə uyğun olaraq, ona verilmiş səslər düzgün hesablanmamışdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, şikayətçi Hüseynov Natiq Məmməd oğlu səsvermə günü mübahisələndirdiyi seçki məntəqəsində şəxsən müşahidə aparmamış, onun müşahidə aparmasına hər hansı bir maneənin yaradılması ilə bağlı aidiyyəti DSK-ya və ya MSK-nın qaynar xəttinə məlumat verməmişdir.

Araşdırma ilə səsvermə günü 85 saylı Şamaxı seçki dairəsinin 12 saylı seçki məntəqəsində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış və müəyyən edilmişdir ki, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuşdur. Səslərin sayılmasında hər hansı bir pozuntuya yol verilmədiyi səslərin sayılmasını müşahidə etmiş müşahidəçilər V.S.Cəbiyevanın, A.V.Zərbalıyevanın, F.F.Mirzəyevanın, M.B.Sərxanovanın, T.G.Şeydayevanın, bələdiyyə üzvlüyünə seçilməmiş digər namizədlər C.A.Abasovun, A.K.Manafovun, E.Ə.Babaşovun, həmçinin 85 saylı Şamaxı DSK-nın 12 saylı seçki məntəqəsi MnSK-nın sədri R.Ə.Rzainin, katibi İ.A.Əliyevin, üzvlər Q.T.Əliyevin, R.A.Məmmədovun, A.T.Balakişiyevin izahatları ilə təsdiq olunur.

Beləliklə, şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən olunmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Şamaxı seçki dairəsindən Şəhriyar bələdiyyəsi üzrə qeydə alınmış namizəd Hüseynov Natiq Məmməd oğlunun 30 dekabr 2019-cu il tarixli 49 saylı müraciəti əsassız olduğundan təmin olunmasın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov